**DOI: https://doi.org/10.59849/2957-3882.2023.2.113**
**UOT: 327, 338**

# XƏZƏR DƏNİZİNİN ENERJİ RESURSLARINDAN İSTİFADƏDƏ AZƏRBAYCAN-TÜRKMƏNİSTAN ƏLAQƏLƏRİ

**Nadejda ƏSƏDOVA***

***Açar sözlər:*** *Xəzər dənizi, Azərbaycan, Türkmənistan, enerji resursları, iqtisadi əlaqələr*

## XÜLASƏ

Azərbaycan-Türkmənistan əməkdaşlığının ən mühüm aspektini təşkil edən Xəzər əməkdaşlığı 2018-ci ilin avqust ayında beş sahilyanı dövlət başçısı tərəfindən imzalanmış “Xəzər dənizinin hüquqi statusunun əhəmiyyəti haqqında” sazişdə müzakirə edilmişdir. Bu sənəd Xəzərdə enerji sahəsində əməkdaşlığın yeni mərhələsinin başlanğıcı idi. 2019-cu ilin 10 oktyabr və 25 oktyabrında Azərbaycan Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında təkbətək görüşlər keçirildi. Bu görüşlər 2021-ci ilin 21 yanvarda öz nəticəsini verdi və Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen ehtiyatlarının birgə kəşfiyyatı, işlənməsi və istismara verilməsi haqqında” Anlaşma Memorandumu imzalandı.

2022-ci ilin 29 iyununda və 14 dekabrında Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovla görüşü keçirildi. Danışıqların nəticəsi qəbul olunmuş layihələrin həyata keçirilməsinə, Xəzər hövzəsinin enerji resurslarının istifadəsinə və Azərbaycan-Türkmənistan münasibətlərinin sürətlə inkişafına güclü təkan vermişdir.

## Giriş

Xəzər hövzəsi dünyanın karbohidrogen ehtiyatları ilə zəngin regionlarından biri olmaqla, bu ehtiyatlara olan maraqların təmin edilməsi üçün “yağlı tikə” rolunu oynayır. SSRİ-nin mövcudluğu dövründə Xəzər dənizi demək olar ki, de-fakto bu dövlətin mülkiyyəti altında idi. Sovet imperiyasının dağılması nəticəsində müstəqil dövlətlərin yaranmasından sonra isə regionda vəziyyət mürəkkəbləşmişdir. Nəticədə Xəzər dənizi 5 dövlətlə həmsərhəd, karbohidrogen ehtiyatları ilə zəngin su hövzəsinə çevrilmişdir. Hövzə dövlətlərindən Azərbaycan və Türkmənistanın əməkdaşlığı öz nəticəsini vermiş və beləliklə, 2021-ci il yanvarın 21-də “Xəzər dənizindəki “Dostluq” yatağının karbohidrogen ehtiyatlarının birgə kəşfiyyatı, işlənməsi və istismarı haqqında” Anlaşma Memorandumu imzalanmışdır. 2022-ci ilin 29 iyun və 14 dekabr tarixlərində iki dövlət başçısı arasında görüşlər keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun müvafiq olaraq Aşqabad və Türkmənbaşı şəhərlərində apardıqları danışıqların nəticələri qəbul edilmiş layihələrin həyata keçirilməsinə, Xəzər hövzəsinin enerji ehtiyatlarından səmərəli istifadəyə və həm Azərbaycanın, həm də Türkmənistanın sürətli inkişafına güclü təkan verib. SSRİ-nin dağılmasından sonra Xəzər dənizi hövzəsində davam edən təxminən 30 illik mübahisələrin, fikir ayrılıqları və gərginliyin aradan qalxması üçün Azərbaycan və Türkmənistan tərəfindən bir sıra mühüm addımlar atıldı. Bunların arasında ən vacib və əhəmiyyət kəsb edən hadisə Azərbaycan və Türkmənistanın Xəzər dənizindəki karbohidrogen yataqlarını birgə istifadəsi ilə bağlıdır. Bu hadisə

* *AMEA akad.Z.M.Bünyadovadına Şərqsünaslıq İnistitutu.*
*E-mail: esedovanad@gmail.com*

həm Xəzər dənizində gərginliyin ortadan qalxmasına, həm də Türk dünyasında mühüm rol oynayan iki dövlətin əlaqələrinə ciddi şəkildə təsir etmişdir.

Müasir dövrdə Azərbaycan və Türkmənistan arasında mövcud olan əlaqələrin formatının dəyişilməsini mühüm hadisə hesab etmək olar. 2021-ci il yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında video konfrans formatında görüş Azərbaycan və Türkmənistanın ikitərəfli münasibətlərində bir sıra yeniliklərə səbəb oldu.

**Azərbaycan- Türkmənistan münasibətlərinə icmal baxış**

Məlum olduğu kimi, iki ölkə arasında əlaqələr 1992-ci il iyun ayının 9-da qurulmuşdur. 1999-cu il iyunun 8-də Türkmənistanın Azərbaycanda səfirliyi fəaliyyətə başladı. Lakin cəmi iki il sonra – 2001-ci il iyunun 4-də Türkmənistan tərəfi maliyyə problemlərini əsas gətirərək Azərbaycandakı səfirliyinin fəaliyyətinə müvəqqəti xitam verməli oldu. 2008-ci ildə səfirlik yenidən öz fəaliyyətini bərpa etdi.

Azərbaycan Respublikasının səfirliyi Aşqabad şəhərində 2002-ci ildə fəaliyyətə başlamışdır. Ölkəmizlə Türkmənistan arasındakı ikitərəfli münasibətlər daim siyasi şərhçilər tərəfindən təhlil edilmişdir. Bu ölkə ilə qarşılıqlı sərfəli əməkdaşlıq hər zaman Azərbaycanın xarici siyasətinin ən mühüm və vacib istiqamətlərindən birini təşkil etmişdir. Hər iki ölkə xalqlarının etnik kökünün, dilinin, dini inancının və mədəni irsinin eyni və ya oxşar olması, habelə bir-birinə yaxınlığı Azərbaycan-Türkmənistan münasibətlərinin daha da sürətli inkişafına möhkəm və sağlam zəmin yaratmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətə gələrkən digər türk dövlətləri ilə münasibətlər normal deyildi. Qarşılıqlı münasibətlərdəki soyuqluq məhz Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində tədricən aradan qaldırıldı. Ulu öndərin yeritdiyi uğurlu və balanslaşdırılmış xarici siyasət Orta Asiyanın türk dövlətləri ilə ikitərəfli əlaqələrin qarşılıqlı fayda əsasında inkişaf etdirilməsi istiqamətində mühüm addımların atılmasına əlverişli şərait yaratdı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkmənistanla münasibətlərə xüsusi diqqət yetirərək hərtərəfli əlaqələrin qurulub inkişaf etdirilməsi üçün mühüm rol oynamışdır. Xatırlatmaq istərdik ki, ilk dəfə ulu öndər Heydər Əliyev 1994-cü ilin oktyabr ayında Türkmənistana rəsmi səfər etdi. Türkmənistan Prezidenti Saparmurad Niyazov da öz növbəsində 1996-cı ilin mart ayında Bakıda rəsmi səfərdə oldu. Bu səfərlər nəticəsində ikitərəfli siyasi, iqtisadi və mədəni əməkdaşlığın inkişaf etdirilməsi üçün bir sıra mühüm əhəmiyyət kəsb edən sənədlər imzalandı. Həmin sənədlərin imzalanması ilə iki ölkə arasında müşahidə olunan soyuq münasibətlərin tədricən aradan qaldırılmasına başlanıldı, eyni zamanda, bir sıra mühüm məsələlərə dair ümumi razılaşma əldə edildi.

24-25 yanvar 2005-ci il tarixində Aşqabad şəhərində "Xəzər dənizinin dəniz mühitinin mühafizəsi haqqında çərçivə konvensiyası"nın "Xəzər dənizinin quruda yerləşən mənbələrdən və quruda aparılan fəaliyyətlərdən çirklənməsindən mühafizə olunması haqqında Protokol" layihəsinin hazırlanması üzrə Xəzəryanı dövlətlərin görüşü keçirilmişdir. Azərbaycan və Türkmənistan tezislərinin bir-birinə yaxın olmasına baxmayaraq iki dövlət arasında anlaşılmazlıq olmuşdur. Buna səbəb isə "Kəpəz", "Azəri" və "Çıraq" yataqlarının mübahisəli olması idi [1, s.10].

"Çıraq" və "Azəri" yataqlarında hasilat başlayanda Azərbaycan-Türkmənistan münasibətləri kəskin şəkildə pisləşmişdi. Lakin iki dövlət arasında yaranmış bu soyuq münasibətlər yalnız Saparmurat Niyazovun vəfatından sonra (2006-cı il) yaxşılaşmağa başladı. Qurbanqulu Berdiməhəmmədov Türkmənistanda siyasi hakimiyyətə gəldikdən sonra Azərbaycan Prezidenti İlham Əliyevlə bir çox istiqamətlərdə ardıcıl dialoqların əsası qoyuldu.

Vurğulamağı vacib sayırıq ki, Azərbaycan və Türkmənistan arasında qarşılıqlı anlaşma regionda mühüm geosiyasi hadisələrdən hesab edilə bilər. Belə ki, bu anlaşmanın Xəzərin enerji

resurslarından səmərəli istifadəyə və həmçinin, türk dövlətlərinin arasında yaxınlaşmanın daha da güclənməsinə müsbət təsiri olmuşdur. Xüsusilə, ölkəmizin şanlı qələbəsi ilə bitən 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın dünyada və bölgədə siyasi təsir gücü bir qədər də artdı. Artıq Azərbaycanla güc yolu ilə, təzyiq vasitəsilə danışmağın mümkünsüzlüyü bir daha təsdiq olunmuşdu. İkinci Qarabağ savaşında müzəffər Azərbaycan ordusunun qazandığı zəfərin əsas amillərindən biri, hesab edirik ki, Türkiyə və Azərbaycan arasında bütün sahələrdə təzahür edən əlaqələrin sıx və güclü olması idi. Maraq cəlb edən odur ki, Azərbaycan və Türkmənistan arasındakı əlaqələrin güclənməsi Ermənistanda və erməni siyasi dairələrində böyük narahatlıqla, kifayət qədər həyəcanla qarşılandı. Bunun əsas səbəblərindən biri Azərbaycanın ixracının artması və bunun da öz növbəsində hərbi xərclərə müsbət təsir etməsi idi. Bunun üçün də Azərbaycan-Türkmənistan əlaqələrinin güclənməsi vacib əhəmiyyət kəsb edir.

Qeyd etdik ki, Saparmurat Niyazovun hakimiyyəti dövründə ölkələrimiz arasında ikitərəfli münasibətlər arzu edilən səviyyədə olmayıb. Məlum olduğu kimi, Türkmənistanın Xəzərin hüququ statusu və milli sektorların sərhədləri ilə bağlı nümayiş etdirdiyi mövqe Xəzər bölgəsi ölkələri arasında narahatçılığa səbəb olurdu. Xəzər dənizi hövzəsində birgə əməkdaşlıq, həmçinin dənizin karbohidrogen ehtiyatlarının işlənməsi və xarici bazarlara çıxarılması məsələsində də Türkmənistanın qeyri-prinsipial mövqeyi bu ölkənin tərəfdaş mövqeyinə xələl gətirirdi.

Belə ki, 1992-ci ildə Azərbaycan və Türkmənistan arasında diplomatik əlaqələrin qurulmasına baxmayaraq enerji resursları ilə zəngin olan iki türk dövlətinin münasibətləri hələ də formal olaraq qalırdı. İki dövlət arasındakı münasibətlərin keyfiyyətcə aşağı səviyyədə olmasının əsas səbəbi Türkmənistan tərəfindən Xəzər dənizinin Azərbaycana aid sektorunda olan bir neçə yatağa haqsız iddia idi. Qeyd etdiyimiz kimi, "Çıraq" və "Azəri" yataqlarından hasilat başlandığı zaman iki ölkə arasındakı münasibətlər daha da gərginləşmişdi. Lakin S.Niyazovun vəfatından sonra münasibətlərin yaxşılaşması müşahidə olunmağa başladı. Bununla belə, 2009-cu ildə Q.Berdiməhəmmədovun "Çıraq" və "Azəri" yataqlarının mülkiyyət məsələsini regional bir problemə çevirmək cəhdləri hələ də davam edirdi. Ölkələr bir çox xarici şirkətlərlə yataqların birgə istismarı üçün müvafiq müqavilələr bağlasalar da, bunu uzun müddət ərzində davam etdirmədilər və bu qərarların təxirə salınmasını məqsədəuyğun hesab etdilər.

Qurbanqulu Berdiməhəmmədov hakimiyyətə gəldikdən sonra Türkmənistan və Azərbaycan arasındakı əlaqələr əvvəlki illərlə müqayisədə daha da sıxlaşmağa və genişlənməyə başladı. Bir çox istiqamətlərdə iki ölkənin liderləri arasında ardıcıl və işgüzar dialoqlar başladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28-29 noyabr 2008-ci il və 21-22 noyabr 2018-ci il tarixlərində Türkmənistana rəsmi səfərlər etdi. Bu səfərlər iki ölkə arasındakı münasibətlərin sürətli inkişaf zəminində mühüm rol oynadı. Belə ki, 2008-ci ilin noyabr ayında baş verən səfər zamanı Azərbaycan ilə Türkmənistan arasında müxtəlif sahələrin birgə inkişafı ilə bağlı mühüm qərarlar qəbul edildi və bu qərarlar münasibətlərin möhkəmlənməsinə mühüm töhfələr verdi. Görüşlərdə regional sabitlik, narkotik ticarətinə qarşı birgə tədbirlər, mütəşəkkil cinayətkarlıqla mübarizə, həmçinin terrorizmlə mübarizəyə qarşı birgə səylər müzakirə edildi. Eyni zamanda, görüşlərdə barəsində fikir mübadiləsi aparılan məsələlərdə əsas məqsəd Türk dünyasının bir arada sıx və dərin əlaqələrinin daha da güclənməsinə töhfə vermək idi [2].

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov 19-20 may 2008-ci il, 18 noyabr 2010-cu il, 12 iyul 2015-ci il və 25 oktyabr 2019-cu il tarixlərində Azərbaycan Respublikasına səfər etdi. Bu səfərlərin əsas məqsədi isə günümüzə yaxın tarixdə imzalanmış razılaşmanın hazırlıq mərhələləri idi.

İki ölkə arasındakı münasibətləri təhlil edən müəlliflərin də qeyd etdikləri kimi, zəngin karbohidrogen ehtiyatları olan Azərbaycan və Türkmənistanın regionda enerji siyasəti məsələlərinə eyni mövqedən yanaşmalarının və energetika sahəsində əməkdaşlıqla bağlı razılaşmalarının işartıları artıq görünməkdədir. Bakıda keçirilmiş "Azərbaycan və Türkmənistan

neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategiyası" mövzusunda beynəlxalq konfrans da iki dövlət arasındakı səmərəli dialoqun nəticəsidir [5].

21 yanvar 2021-ci ildə Azərbaycan Respublikası və Türkmənistan arasında Türkmənistanın Aşqabad şəhərində Xəzər dənizindəki "Dostluq" yatağında karbohidrogen ehtiyatlarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında imzalanmış Anlaşma Memorandumu hər iki ölkənin və xalqın həyatında iqtisadi və siyasi cəhətdən xüsusi əhəmiyyətə malik mühüm tarixi hadisədir.

Görüşdə "Dostluq" yatağının birgə işlənməsinin önəmli əhəmiyyətinə diqqət çəkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirmişdir: "Mən bugünkü sənədi tarixi sənəd adlandırardım, çünki Azərbaycanla Türkmənistan ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlayır və yataqdakı iş həm ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək" [3].

Müasir dövrdə Azərbaycanla Türkmənistan arasında qarşılıqlı anlaşma Xəzərin enerji resurslarının səmərəli istifadəsinə və Türk dövlətlərinin bir-birinə yaxınlaşmasının güclənməsinə böyük təsir etmişdir [4].

Ötən il Azərbaycanla Türkmənistanın birgə təşkil etdikləri tədbirlərdə Türkiyə də iştirak etmişdir. Belə ki, 14 dekabr 2022-ci ildə keçiriləcək konfransdan bir gün əvvəl, dekabrın 13-də Türkmənistanın Avaza şəhərində Azərbaycan, Türkiyə və Türkmənistan XİN rəhbərlərinin görüşü keçirildi.

Azərbaycan xarici siyasət idarəsinin başçısı Ceyhun Bayramov bildirmişdir ki, üçtərəfli görüşün əməkdaşlığın inkişafında böyük əhəmiyyəti vardır. Azərbaycan, Türkiyə və Türkmənistan arasında əməkdaşlıq formatı Şərq-Qərb Trans-Xəzər nəqliyyat dəhlizinin gücləndirilməsində, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yeni nəqliyyat infrastrukturunun yaradılmasında, Zəngəzur dəhlizinin açılması istiqamətində xüsusi əhəmiyyət kəsb edir [6].

14 dekabr 2022-ci il tarixində Türkmənbaşı şəhərində baş tutan konfransda prezidentlər İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan və Sərdar Berdiməhəmmədov arasında görüş keçirildi.

Konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etmiş və qeyd etmişdir: "Tarixi bağlar üzərində qurulmuş münasibətlər ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlığın inkişafı üçün imkanlar yaradır. Bu il (2022-ci il) Türkmənistanla ticarət dövriyyəsi 5 dəfə artmışdı. Bu, rekord göstəricidir" [7].

**Nəticə**

21 yanvar 2021-ci il tarixində Azərbaycan və Türkmənistan arasında imzalanan yuxarıda xatırlatdığımız müqavilə öz növbəsində mühüm əhəmiyyət kəsb edir. Bu, bölgədəki uzunmüddətli gərginliyin azalmasında, iqtisadi və siyasi fəaliyyətin birgə həyata keçirilməsində əhəmiyyətli rol oynayır. Bu hadisə dünyada Türk dövlətlərinin siyasi çəkisinin və həcminin daha da artmasına, yeni dünya düzənində öz yerlərini daha da gücləndirməsinə səbəb olmuşdur. Sözsüz ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan və Türkiyə arasındakı siyasi birliyin özünü tam şəkildə büruzə verməsi və Azərbaycanın öz hərbi gücünü ortaya qoyması Türkmənistanın Xəzər dənizi regionunda sərgilədiyi mövqeyini hər iki dövlətin xeyrinə dəyişmişdir. Beləliklə, bu razılaşma gələcəkdə yeni iqtisadi əməkdaşlıq formatının qurulması baxımından olduqca mühümdür. Bu istiqamətdə fəaliyyətin davam etdirilməsi Xəzər dənizi hövzəsində münasibətlərin müsbətə doğru dəyişməsində mühüm rol oynayır və oynamaqda davam edir.

Bu layihələrin həyata keçirilməsi, dəhlizin açılması bölgənin bir çox digər ölkələrlə, həmçinin Türkmənistanla iqtisadi və başqa əhəmiyyətli sahələrdə əlaqələrinin inkişafına güclü təkan verəcəkdir.

## ƏDƏBİYYAT:


1. Tural İsmayılzadə. Xəzərin enerji ehtiyatları böyük dövlətlərin geosiyasi və regional maraqlarında (səh10)21
2. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu / https://president.az/az/articles/view/50730
3. Yeniazərbaycan.com/Siyasət_e57934_az.html Mübariz Abdullayev
4. Məşhur Məmmədov:"Dostluq" yatağı üzrə memarondum əməkdaşlığımızı daha da genişləndirəcək. "Səs" qəzeti, 25 yanvar 2021
5. Cəfərli R. Azərbaycan-Türkmənistan münasibətləri sürətlə inkişaf edir."Azərbaycan" qəzeti, 5 dekabr 2008
6. Üç ölkəni bir araya gətirən ortaq maraqlar / https://www.yeniazerbaycan.com/Siyaset_e77891_az.html
7. Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin geniş tərkibdə görüşü keçirilib /https://president.az/az/articles/view/58192



## РЕЗЮМЕ

***Надежда АСАДОВА***

***Азербайджано-Туркменские отношения в использовании энергетических ресурсов Каспийского моря***

***Ключевые слова:*** *Каспийское море, Азербайджан-Туркменистан, энергетические ресурсы, экономические отношения*

Каспийское сотрудничество, являясь важнейшим направлением азербайджано-туркменского сотрудничества, обсуждалось в соглашении «О важности правового статуса Каспийского моря», подписанном в августе 2018 года главами пяти прибрежных государств. Документ стал началом нового этапа сотрудничества в сфере энергетики на Каспии. 10 и 25 октября 2019 года состоялись двусторонние встречи между Президентом Азербайджана Ильхамом Алиевым и Президентом Туркменистана Гурбангулы Бердымухамедовым. Это сотрудничество дало свои результаты и 21 января 2021 года был подписан меморандум «О совместной разработке, внедрении и эксплуатации углеводородных ресурсов месторождения "Достлуг" на Каспии".

29 июня и 14 декабря 2022 года в Ашхабаде состоялись встречи Президента Азербайджанской Республики Ильхама Алиева и Президента Туркменистана Сардар Бердымухамедова. Результаты переговоров дали мощный импульс реализации принятых проектов, использованию энергетических ресурсов Каспийского бассейна и стремительному развитию азербайджано-туркменских отношений.

## ABSTRACT

***Nadejda ASADOVA***

### *Relations between Azerbaijan and Turkmenistan in the Use of Energy Resources of the Caspian Sea*

***Keywords:*** *Caspian Sea, Azerbaijan, Turkmenistan, energy resources, economic relations*

Caspian cooperation, which is the most important aspect of Azerbaijan-Turkmenistan cooperation, was discussed in the agreement “On the Importance of the Legal Status of the Caspian Sea” signed by the heads of the five coastal states in August 2018. This document was the beginning of a new stage of energy cooperation in the Caspian Sea. On October 10 and 25, 2019, one-on-one meetings were held between the President of Azerbaijan, Ilham Aliyev, and the President of Turkmenistan, Gurbanguly Berdimuhamedov. All these meetings gave their results on January 21, 2021. And a “Memorandum of Understanding” was signed on the joint exploration, development, and exploitation of hydrocarbon resources of the “Dostluq” field in the Caspian Sea.

On June 29, 2022, the President of the Republic of Azerbaijan, Ilham Aliyev, met with the President of Turkmenistan, Serdar Berdimuhamedov, in Ashgabat. The result of the negotiations gave a strong impetus to the implementation of the accepted projects, the use of energy resources in the Caspian basin, and the rapid development of Azerbaijan-Turkmenistan relations.